# «Mədəni dialoq: etnik ənənələr və müasirlik» adlı layihə çərçivəsində konfrans

Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun dəstəyi ilə “Kainat” Gənclik Mərkəzinin əməkdaşı Nərgiz Məmmədzadənin fərdi layihəsi



əsasında rayon Mədəniyyət Mərkəzində “Mədəni dialoq: etnik ənənələr və müasirlik” adlı layihə çərçivəsində konfrans keçirilmişdir. Tədbirdə Qəbələ, Qax, Balakən və İsmayıllı rayonlarından olan etnik xalqların, gənclərin və ictimaiyyətin nümayəndələri iştirak etmişlər.

Tədbiri giriş sözü ilə açan Qəbələ rayon Gənclər və İdman İdarəsinin rəisi Fəxri Soltanov iştirakçıları salamlamış və onlara konfransın məqsəd və vəzifələri barədə məlumat vermişdir. Daha sonra “Kainat” Gənclik Mərkəzinin direktoru Rahib Rəsulzadə və layihə rəhbəri Nərgiz Məmmədzadə çıxış edərək bildirmişlər ki, konfransın keçirilməsində əsas məqsəd dünya çapında birgə yaşayış modeli təbliğinin gücləndirilməsi, mədəniyyətlərarası dialoqun əsas məkanı kimi ölkəmizin təqdimatı, bu formatın optimallığının və mümkünlüyünün Azərbaycan timsalında bir daha sübut edilməsi, həmçinin ölkəmizdə radikalizm, separatizm və qeyri-ənənəvi təzahürlərə qarşı mübarizəyə müxtəlif etnik qrupları təmsil edən gəncləri birləşdirməklə, onların multikulturalizm həmrəyliyinə nail olmaqdan ibarətdir.

Konfransda Dini Qurumlarla iş üzrə Dövlət Komitəsinin nümayəndəsi Gündüz Paşayev və Qafqaz Müsəlmanları İdarəsinin əməkdaşı Ceyhun Rüstəmov ekspert qismində iştirak etmiş və dini dözümlülük, tolerantlıq, multikulturalizm sahəsində Azərbaycanda görülən işlərdən danışmış və belə tədbirlərin keçirilməsinin bu sahədə gənc nəslin maarifləndirilməsində müstəsna əhəmiyyəti olduğunu bildirmişlər.

Tədbir diskussiya formatında davam etdirilmiş, maraqlı təkliflər və fikirlər əsasında qərar layihəsi qəbul edilmişdir. Sonda gəncləri maraqlandıran suallara ətraflı cavablar verilmişdir.

**M. SƏFƏRÇİNOV,**
**gənclər və idman idarəsinin baş məsləhətçisi.**
**Foto S. Umuyevindir.**

# Maarifləndirici tədbir keçirilmişdir

Azərbaycan Respublikası Prerzidenti Yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının və “Könüllü Gənclər” İctimai Birliyinin təşkilatçılığı ilə Qəbələdə Qeyri-Hökumət Təşkilatlarının Təlim və Resurs Mərkəzində “Gənclər arasında karyera qurma və peşə seçimi istiqamətində maarifləndirici tədbirlərin həyata keçirilməsi” layihəsi çərçivəsində seminar-müşavirə təşkil olunmuşdur.

Tədbirdə ictimai birliyin fəaliyyəti və layihə haqqında iştirakçılara ətraflı məlumat verilmiş, təlimin əhəmiyyəti onların diqqətinə çatdırılmışdır.

Sonra peşə seçimi və karyera, insan həyatında işin önəmi və yeri, peşə seçimi nədir və nə üçün önəmlidir, CV-lərin hazırlanması, iş yerlərinə müraciət və özünü təqdimetmə, gənclərin komanda şəklində işləməsi və işgüzarlıq keyfiyyətləri və s. mövzularda söhbətlər aparılmışdır.

Yekunda iştirakçıları maraqlandıran mövzular ətrafında müzakirələr aparılmışdır.

**Qəbələ Regional QHT-lərin Resurs və Təlim Mərkəzinin mətbuat xidməti.**

*Tanış olun, həmyerlimizdir*

# Bacarıqlı sahibkar— qayğıkeş xeyriyyəçi

Haqqında söhbət açacağım insan 1975-ci ildə Qəbələ rayonunun Məlikli kəndində anadan olub. Atası Allahverdi müəllimin iş yeri ilə əlaqədar Rafael hələ uşaqkən ailəlikcə Mingəçevirə köçüblər. Orta və ali məktəbləri müvəffəqiyyətlə bitirən Rəfail Məmmədov bir müddət müxtəlif təşkilatlarda ixtisasına uyğun iqtisadçı kimi fəaliyyət göstərib. Ötən əsrin 90-cı illərinin ortalarından başlayaraq ümummilli lider Heydər Əliyevin qayğısı sayəsində ölkəmizdə sahibkarlığın inkişafına yaradılmış münbit şərait gənc Rəfaelin də bu sahəyə marağını artırdı.

Əvvəllər kiçik bizneslə məşğul olan Rəfael bu sahədə durmadan uğurlar əldə etdi. Zəhmətsevərlik düzgünlük, halalıq Məmmədovlar ailəsinin tezliklə sahibkarlıq sahəsində uğurlar əldə



etməsinə zəmin oldu. Vaxtilə ailəsini güc-bəla ilə dolandıran Allahverdi müəllimgili indi Mingəçevir şəhərində hamı imkansızlara əl tutan bir xeyriyyəçi kimi tanıyır.

Ailənin böyük oğlu Rəfaeli atasının xeyriyyəçilik estafetini uğurla davam etdirir. Rəfail Məmmədov Mingəçevirdə yaşadığı məhələnin abadlığı üçün əlindən gələni edir. Məhəllədəki kiçik parklara 400-dən artıq ağac, mindən artıq qiymətli gül kolu əkilməsini təmin edib.

Rəfael müəllim itmkansız ailələrin xeyir və şər məclislərinin təşkilinə kömək göstərir. Ona kömək üçün müraciət edənləri imkan daxilində naümüd qaytarmır. Rafael müəllimi tanıyanlar hamısı onun qayğıkeşliyindən, xeyirxahlığından ağızdolusu danışır. Ömrünün 40-cı yaşında belə hörmət qazanmış həmyerlimizlə biz də fəxr edirik.

**Çələbi DÖNMƏZ.**

# Əlifba bayramı

Rayonun kənd məktəbləri arasında Soltannuxa kənd tam orta məktəbi ən böyük məktəblərdən biridir. Bu məktəbdə 480 nəfər şagirdin təlim-tərbiyəsi ilə 76 nəfər müəllim məşğul olur. Məktəbdə 25 sinif komplekti vardır.

Artıq 2014—2015-ci tədris ili başa çatmaqdadır. Bu günlərdə müəllimlər və şagirdlər il ərzində çəkdikləri zəhmətin müqabilində hesabat vermək ərəfəsindədirlər. Bu hesabat ondan ibarətdir ki, müəllimlər gələcəyimizin qurucularına nə öyrədə biliblər, bu sahədə hansı uğurları qazanıblar? Şagirdlərsə hansı səviyyədə bilik və bacarıq əldə ediblər?

İlk hesabatı məktəbin I «a» sinfinin müəllimləri və şagirdləri vermişlər. Həmin sinifdə 23 şagird biliklərin açarı olan «Əlifbanı» öyrənmişlər. Bu münasibətlə məktəbdə Əlitba bayramı təşkil olunmuşdur.

Bayram tədbirinə məktəbin rəhbərliyi, sinif müəllimləri ilə yanaşı valideynlər, şagirdlərin yaxınları da toplaşmışdılar. İlk olaraq toplantının önündə tədbirin aparıcısı Nazənin İsrəfilova göründü. O, əvvəlcə Azərbaycan Respublikasının Dövlət Bayrağının salona gətirilməsini xahiş etdi. Sonra salonda Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Tədbirdə qeyd olundu ki, I «a» sinfinin 23 şagirdinin



hamısı bu gün Azərbaycan dilinin əlitfbasını tam öyrənmiş, onlar sərbəst oxumağı, yazmağı bacarır və fikirlərini başqalarına çatdıra bilirlər. Birincilər bu günki, təntənəli bilik bayramında ilk dərs ilində qazandıqları bilik və bacarıqlarını məktəbin müəllim kollektitvi və valideynləri qarşısında nümayiş etdirəcəklər. Əlbəttə, şagirdlərin il ərzində qazandığı nə varsa hamısı hec də asan mənimsənilməmiş, onların hamısı müəllim əməyinin, böyük zəhmətin, eyni zamanda şərəfli əməyin bəhrələridir. Beləliklə, tədbir «Əlifba» sözünün ifadəsi olan hərifləri əllərində tutan 6 şagird önə çıxır və hər hərflə başlayan tapmacalar söyləyirlər, uşaqlar tapmacaları tapırlar.

Birincilərin çıxışları bundan sonra bir-birini əvəz edir, məktəb, müəllim, ana, vətən haqqında şeirlər, müxtəlif səhnəciklər müəllimlərin, valideynlərin alqışları ilə qarşılanır. Ayxanın, Fəridin, Elmirin, Lamiyənin, Lətifənin, Humayın, Gülərin, Şəfəqin və başqaların, ümumiyyətlə, bütünlükdə birincilərin çıxışları bir daha göstərdi ki, onların müəllimi Kamilə Xəlilovanın, bir il öncə hazırlıq qrupunun müəllimi Sevil İsrəfilovanın zəhmətləri hədər getməmişdir.

Tədbirdə məktəbin direktor müavini Şahid Quliyev, valideynlərdən Aynur Rəsulova, birincilərin nənələri Elmira Mahmudzadə, Aybəniz Quluyeva, Hicran Babayeva və başqaları çıxış edərək müəllimlərə, məktəb rəhbərliyinə, tədbirin bütün təşkilatçılarına minnətdarlıq bildirdilər.

Məktəbin direktoru Həqiqət Rzayeva çıxış edərək, valideynləri məktəb rəhbərliyi adından salamladı, birinci sinfi uğurla başa vurduqları üçün şagirdləri təbrik etdi, tədbirin yüksək səviyyədə təşkili üçün təşkilatçılara təşəkkürünü bildirdi.

**Nadir ATAKİŞİYEV.**